BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2007

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASINDA ATƏT-in VASİTƏÇİLİK MİSSİYASI: PROBLEMLƏR, VƏZİFƏLƏR

**A.A.GÜLƏLİYEVA**
*Bakı Dövlət Universiteti*

Azərbaycan Respublikasının universal və regional beynəlxalq təşkilatlarda iştirakının ən ümdə məqsədi – milli ərazi bütövlüyünü təmin etmək, regionda qarşılıqlı mənfəət əsasında əməkdaşlığa söykənən sabitliyə və inkişafa nail olmaqdır. Bütövlükdə Azərbaycanın bu təşkilatlarda göstərdiyi xarici siyasət fəaliyyətini sülhyaratma kursu adlandırmaq olar ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında fəaliyyət bunun bariz nümunəsidir.

1994-cü ildə baş vermiş məlum hadisələrdən, xüsusilə mayda atəşkəs əldə olunduqdan sonra, ATƏT-in Budapeşt sammitinin yaxınlaşması ilə əlaqədar olaraq, Azərbaycan diplomatiyası öz fəallığını daha da artırdı. Azərbaycan nümayəndə heyəti həmin ilin iyulunda ATƏT-in Parlamentlərarası Assambleyasının Vyana sessiyasında fəal iştirak edir. Sessiyada çıxış edən Almaniya Bundestaqının prezidenti xanım Rita Zismut beynəlxalq münaqişələrin həllində ATƏM-in müəyyən təcrübə topladığını vurğulayaraq qeyd etmişdir ki, regionda əmin-amanlığın bərpası üçün ATƏT-in imkanlarından daha geniş və səmərəli istifadə olunmalıdır. Sessiyada, həmçinin, hamılıqla qəbul olunur ki, ATƏM bir təşkilat kimi formalaşmalı, yeniləşməli, funksiyası və səlahiyyətləri təkmilləşdirilməlidir (1).

ATƏM-in Minsk qrupunun rəhbəri Yan Eliassonun Dağlıq Qarabağ ətrafında gedən münaqişədə sülh prosesinin inkişafı mövzusunda çıxışı görüş iştirakçıları tərəfindən böyük maraqla qarşılandı. Sessiyada ilk dəfə Minsk qrupu rəhbərinin çıxışında «Azərbaycanın işğal edilmiş torpaqları» ifadəsi işlənilir (2). İclaslararası fasilələr zamanı aparılan danışıqlar göstərmişdir ki, Azərbaycan Vyanada qarşıya qoyduğu məqsədə nail ola bilmiş, respublikamız haqqında həqiqətləri ATƏM-in iştirakçı-dövlətlərin nümayəndələrinə çatdıra bilmişdir .

Azərbaycan siyasi rəhbərliyinin fəal diplomatik səyləri, müntəzəm təbliğat və izahat işi aparılması nəticəsində 1993-cü ilin yayından keçən qısa bir vaxtda aparıcı dünya dövlətlərinin, onların ayrı-ayrı nüfuzlu nümayəndələrinin mövqelərində münaqişə ilə bağlı əsaslı dəyişikliklər baş verdi. Amerika konqresmeni Cozef Kennedinin 1994-cü ilin avqustunda ABŞ prezidentinə müraciətində qeyd olunurdu ki, ATƏM-in irəli sürdüyü ümidverici təkliflər Dağlıq Qarabağ ətrafındakı böhranlı vəziyyəti aradan qaldırmaqda daha real addım sayılmalıdır. Həmin təkliflərdə atəşin həmişəlik dayandırılması, vuruşan tərəflərin qüvvələrinin aralandırılması, döyüşlərin gedişatında işğal olunmuş ərazilərin geri

verilməsi, bütün növ blokada üsullarından imtina edilməsi və bu bölgənin siyasi-hüquqi statusu barədə danışıqların aparılması nəzərdə tutulurdu. C.Kennedinin müraciətində ABŞ-a tövsiyə olunurdu ki, ATƏM çərçivəsində münaqişə ilə bağlı bölgədə sülhyaratma qüvvələrinin yerləşdirilməsinə dair ABŞ-ın mövqeyi aydınlaşdırılmalı və birgə qoşun heyətinin təşkil olunmasına nail olunmalıdır .

1994-cü il sentyabrın əvvəllərində ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbraytın Bakıya rəsmi səfəri zamanı Prezident H.Əliyevlə aparılmış danışıqlar ATƏM-in fəaliyyətinə və ABŞ-ın mövqelərinə qiymət vermək baxımından əhəmiyyətlidir. M.Olbrayt qeyd edirdi ki, «ATƏM-də Dağlıq Qarabağ haqqında məsələyə bütün beynəlxalq birlik üçün sınaq kimi yanaşırlar və o, əmindir ki, bu sınaq həmin qəbildən olan regional və beynəlxalq münaqişələrin yayılmasının qarşısını almalıdır» (3). Görüş zamanı Azərbaycan Respublikasının prezidenti H.Əliyev bildirmişdir ki, son vaxtlar Azərbaycan Minsk qrupunun fəaliyyətinin səmərəliliyini artırmaq üçün xeyli işlər görmüşdür.

Azərbaycan rəhbərliyi bu illərdə eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ən böyük beynəlxalq təşkilat olan BMT-nin imkanlarından da istifadə olunması, BMT və ATƏM-in səylərinin əlaqələndirilməsi üçün məqsədyönlü fəaliyyət göstərmişdir. Belə ki, 1993-cü ilin avqustunda Ermənistan ordu hissələrinin Fizuli bölgəsinə olan şiddətli hücumları ilə əlaqədar olaraq, H.Əliyev BMT Təhlükəsizlik Şurasının Sədrinə təcili olaraq TŞ-nın iclasını çağırmağı və Ermənistanın Azərbaycana qarşı təcavüzünü dayandırmağı tələbini gündəmə qoymuşdu (4). 1993-cü ilin avqustun 18-də BMT Təhlükəsizlik Şurasının adından ABŞ-ın BMT-dəki daimi nümayəndəsi xanım M.Olbrayt bəyanat verdi. Bəyanatda deyilirdi ki, TŞ Azərbaycan Respublikasının və regionun bütün başqa dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, habelə onların sərhədlərinin pozulmazlığını bir daha təsdiq edir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olmağa dair ATƏM-in Minsk qrupunun döyüş əməliyyatlarının göstərdiyi mənfi təsirdən dərin narahatlıq keçirdiyini bildirir. Təhlükəsizlik Şurası ATƏM-in sülh missiyasını tamamilə müdafiə etdiyini qeyd edir və Minsk qrupunun danışıqlarının indiki mərhələsində öz baxışlarını və mövqelərini bilavasitə ifadə etmək üçün münaqişədə iştirak edən tərəflərə verilmiş imkanı xüsusilə nəzərə çatdırır. Bu məqsədlə Təhlükəsizlik Şurası bütün tərəfləri avqustun 13-də Minsk qrupunun təqdim etdiyi «BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair təxirəsalınmaz tədbirlər cədvəlinin» dəqiqləşdirilmiş variantına razılaşdırılmış müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırır (5). Hadisələrin sonrakı gedişi göstərdi ki, xanım M.Olbraytın bəyanatı Ermənistan-Azərbaycan cəbhəsində kiçik pauzanın yaranmasndan başqa heç nəyi dəyişmədi. Yalnız Azərbaycan ordusunun dəyanəti, Rusiya və İranın «Əsrin müqaviləsi» ilə bağlı danışıqlara qatılması, Azərbaycan diplomatiyasının çoxtərəfli manevrləri və ümummilli liderimiz H.Əliyevin beynəlxalq nüfuzu Ermənistanın nəzərdə tutduğu planı tam şəkildə reallaşdırmağa imkan vermədi.

Məhz belə bir şəraitdə 1994-cü ilin aprelində Praqada Minsk Qrupu çərçivəsində iştirakçı dövlətlərin görüşü keçirildi. Həmin görüşdə baxılan məsələlər əvvəlki məsələlərdən bir qədər fərqlənirdi. Belə ki,

müzakirə olunan təkliflər Rusiya tərəfindən həmin ilin fevralın 18-də Moskvada irəli sürülən və qəbul olunan Moskva protokolunun təkliflərinə uyğun gəlirdi. Bu isə öz növbəsində Rusiyanın ATƏM çərçivəsində gedən sülh prosesinə göstərdiyi təsirə dəlalət edirdi. Praqa görüşündə münaqişənin həlli ilə bağlı aparılan müzakirələr «Etimadı möhkəmləndirmək tədbirləri» adlı sənədin və Birgə Bəyanatın («Doqquzlar» Bəyanatı) qəbulu ilə nəticələndi. Bu sənədlər heç də Azərbaycanın bütün tələblərini və təkliflərini əks etdirmir, Ermənistanın yeni yaranmış gərginliyə görə cavabdehliyi açıqlanmır, sülh prosesində onun və Dağlıq Qarabağın kommunikasiya xətlərinin açılması Azərbaycana təklif olunurdu. Bu isə işğalçı erməni qoşunlarının işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması haqqında BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin müddəalarına zidd olaraq ilkin şərtlərin irəli sürülməsinə gətirib çıxarırdı.

1994-cü ilin birinci yarısına münaqişənin həlli ilə bağlı ATƏM-in bəzi nümaynədələri ilə Rusiya arasında münasibətlərə aydınlığın gətirilməsi mərhələsi kimi baxıla bilər. Rusiya tərəfindən münaqişənin həllinə hegemonluq elementinin gətirilməsi onun regionda mövqelərinin bərpasına yeni cəhdlər kimi qiymətləndirmək olardı. Təsadüfi deyil ki, problemin belə qoyuluşu ilə bağlı bir çox dövlətlər, xüsusən də ABŞ, Türkiyə və Almaniya dövlətləri müxtəlif bəyanatlarla öz narazılıqlarını bildirmişdilər (6).

1994-cü ilin 7-8 iyulunda Minsk Qrupu çərçivəsində iştirakçı-dövlətlərin Vyanada keçirilən görüşündə Rusiyanın irəli sürdüyü Böyük Siyasi Sazişin layihəsinin müzakirəsində görüş iştirakçıları müxtəlif əlavə və düzəlişlərlə sənədin çoxtərəfli statusunun qəbul olunmasına çalışdılar. Bu görüş göstərdi ki, ATƏM münaqişənin həllində çoxvasitəçilik prinsipinin qəbuluna üstünlük verirdi. Rusiyanın təkvasitəçilik prinsipinə mənfi münasibət bildirilirdi. Lakin əfsuslar olsun ki, bu görüşdə daha bir mövqe üzrə razılıq əldə olunur: istənilən sənədin qəbulu tərəflərin, o cümlədən Ermənistanın razılığı ilə həyata keçirilə bilər. Bu isə Ermənistana hər hansı sənədin qəbuluna maneə yaratmaq imkanının verilməsi demək idi.

5-6 dekabr 1994-cü il ATƏM-in tarixində mühüm bir prosesin başlanmasına təkan verdi. Budapeşt zirvə toplantısına qədər ümdə vəzifəsi Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr aparmaq olan ATƏM, 6 dekabr 1994-cü ildən başlayaraq yeni Avropanın sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyən edən, sülhün, demokratiyanın və insan hüquqlarının müdafiəsini təmin edən, ümumavropa məkanında təhlükəsizlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini həyata keçirən bir beynəlxalq hökumətlərarası təşkilata – təşkilatdaxili hüquq mexanizminə malik olan regional quruma çevrildi. Məhz Budapeştdə ilk dəfə ATƏM-in Avropanın ümumtəhlükəsizlik tədbirlərində iştirak edə biləcək sülhməramlı qüvvələrin yaradılması və münaqişəli ərazilərə göndərilməsi qərara alındı. Azərbaycan nümayəndə heyətinin diplomatik səyi nəticəsində ATƏM-in ilk sülhməramlı qüvvələrinin – 3000 nəfərlik çoxmillətli hərbi qüvvəsinin Minsk qrupu yanında yaradılması və Qarabağ bölgəsinə göndərilməsi haqqında məsələ ilə bağlı razılıq əldə olunur .

Budapeşt zirvə toplantısının gündəliyinə ATƏM-in daha da möhkəmləndirilməsi, Avropa miqyaslı siyasi, iqtisadi, hərbi və humanitar

məsələlərinin həllində və ümumavropa məkanında hərtərəfli təhlükəsizliyin təmin olunmasında, həmçinin sülhyaratma səylərinin genişləndirilməsində ATƏM-in rolunun artırılması, xüsusi və müvafiq səmərəli mexanizmlərin yaradılması kimi zəruri məsələlər daxil edilmişdi. Yüksək səviyyədə keçirilən bu sammitdə müzakirə və qəbul olunmaq üçün bir sıra vacib sənədlər, o cümlədən siyasi bəyannamə, İkinci dünya müharibəsinin qurtarmasının 50 illiyinə həsr edilmiş xüsusi bəyannamə, hərbi-siyasi məsələlərə dair sənədlər hazırlanmışdı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev səfər ərəfəsində Avropada, ümumiyyətlə, dünya siyasətində ATƏM-in rolu və zirvə toplantısından gözlənilən nəticələr haqqında dediyi: «Əsas məsələlər bu təşkilatın – ATƏM-in işini gücləndirmək və fəallaşdırmaqdan ibarətdir. Yeni Avropanın yaradılması üçün, yeni Avropanın inkişafı üçün bu təşkilatın fəaliyyəti bundan sonra daha da artıq olmalıdır. Biz bir Avropa dövləti kimi və Avropa birliyinə daxil olan dövlət kimi ATƏM təşkilatının gücləndirilməsi tərəfdarıyıq» (7) - fikri həm də ATƏM-in vasitəçilik missiyasına Azərbaycanın verdiyi qiymətin təzahürü idi. Budapeşt zirvə toplantısında ilk dəfə olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi xüsusi bir məsələ kimi gündəmə salındı və müzakirə olundu. Bu münaqişə ətrafında müzakirələrdə dünyanın aparıcı dövlət başçıları və siyasi xadimləri – B.Klinton, T.Çillər, A.Qor, B.Butros Qali və başqaları çıxış etdilər. B.Klinton öz çıxışında xüsusi olaraq vurğuladı ki, ATƏM Dağlıq Qarabağa sülhməramlı çoxmilli qüvvələr göndərmək barədə razılığa gəlmək yolundadır. T.Çillərin fikrincə, əgər beynəlxalq birlik, ATƏM Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradaq qaldırılmasına və çözülməsinə gecikərsə, o zaman bu təşkilatların heç birinin əhəmiyyəti olmayacaqdır .

Budapeştdə Ermənistan prezidenti L.Ter-Petrosyanın xahişilə Azərbaycan Prezidenti ilə keçirilən görüşdə Heydər Əliyev Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini təşkil edən məsələlərin müzakirəsi zamanı hamı üçün ədalətli sülh təmin olunması, işğal olunmuş ərazilərin azad edilməsi, qaçqınların öz doğma ocaqlarına qayarılması şərtlərini irəli sürmüşdür. L.Ter-Petrosyan isə blokada, millətlərin öz müqəddəratını təyin etməsi hüququ, Dağlıq Qarabağın statusu haqqında ümumi sözlərlə əsas diqqəti böhranın nizamlanmasından yayındırmağa təşəbbüs göstərmişdir. Bütün bunlara baxmayaraq münaqişənin aradan qaldırılması işində bu görüşün mənasını və əhəmiyyətini prezident H.Əliyev belə qiymətləndirmişdi: «...biz ABŞ-ın yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə Azərbaycanın bundan sonra da atəşkəsə sadiq qalacağını bəyan etdik və münaqişəyə ATƏM çərçivəsində sülh yolu ilə son qoyulması üçün yeni bir sazişin hazırlanıb imzalanması barədə öz mövqeyimizi bildirdik».

Azərbaycan Prezidentinin keçirdiyi görüşlərdə Azərbaycan həqiqətləri Avropa dövlətləri başçılarına çatdırılmış, tərəfdarlar və yeni müttəfiqlər qazanmaq üçün fəal axtarışlar aparılmışdır. Budapeştdə beynəlxalq, regional, dövlətlərarası və etnik konfliktlərin tənzimlənməsi sahəsində Azərbaycan Prezidenti Heydər Əliyevin konkret və konstruktiv təkliflərlə çıxış etməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-ə və onun Minsk Qrupuna üstünlük verməsi və sivilizasiyalı birgəyaşayış normaları ilə tənzimlənən yeni Avropanın bərqərar olması işində bu təşkilatın oynaya biləcəyi xüsusi

rolu özünün məntiqli çıxışı ilə sübüt etməsi sammitin işinə konstruktivlik, işgüzarlıq və dinamizm gətirmiş, həmçinin ATƏT-i və onun Minsk qrupunu passivlikdən, fəaliyyətsizlikdən, onun rolunu heçə endirməyə çalışan qüvvələrin qeyri-sağlam münasibətindən xilas etmişdi.

Dekabrın 6-da Budapeşt sammitində Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı ən mühüm hadisələrdən biri oldu. Prezident Heydər Əliyev öz çıxışında ATƏT-in Avropada oynadığı rola, onun təkmilləşdirilməsi zərurətinə böyük diqqət yetirdi. O qeyd etdi ki, müasir şəraitdə ATƏT-in rolu və əhəmiyyəti getdikcə artır. Yeni Avropaya, ayırıcı xətlərin və təsir dairələrinin olmadığı Avropaya təkmilləşdirilmiş ATƏT lazımdır (8).

Heydər Əliyev çıxışında erməni təcavüzünün ölkəmizə vurduğu dəhşətli nəticələri də təsvir etdi. O, öz çıxışında tutarlı əsaslarla bəyan etdi ki, təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20% - dən çoxu işğal olunmuşdur. 20 mindən artıq həmvətənimiz erməni qəsbkarlarının hərəkəti nəticəsində həlak olmuş, 100 mindən artıq yaralanmış və əlil olmuş, 6 min əsir düşmüş, bir milyondan artıq azərbaycanlı, Respublika əhalisinin 15%-ə yaxını öz doğma ocaqlarından qovulmuşlar və çadır şəhərciklərində sığınmağa məcburdurlar. İşğal edilmiş Azərbaycan ərazilərində 700-dən çox şəhər və kənd dağıdılmış, bütün evlər, məktəblər, xəstəxanalar yandırılmış və qarət edilmiş, ən qədim mədəniyyət abidələri, incəsənət əsərləri məhv və qarət edilmişdir .

Prezident H.Əliyev toplantı iştirakçılarını əmin etdi ki, Azərbaycan bu prosesdə yalnız sülhsevər və konstruktiv mövqedən çıxış edir. Qəsbkarların qeyri-insani münasibətlərinə və təcavüzün ağır nəticələrinə baxmayaraq, Azərbaycan tərəfi erməni tərəfinə ədalətə və humanizmə, ATƏM prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə söykənən sülh təklif edir. Azərbaycan Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə zəmanət verməyə hazırdır, münaqişə bölgəsinə sülhməramlı ATƏT qüvvələrinin yerləşdirilməsinə razıdır. Azərbaycan öz ərazisində erməni milli azlığının hüquqlarının həyata keçirilməsi və qorunması üçün Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və Ermənistan Respublikası arasında bütün kommunikasiya vasitələrinin normal fəaliyyət göstərməsini təmin etmək üçün dövlətimizin tərkibində Dağlıq Qarabağın statusunu müzakirə etməyə hazırdır. Lakin Azərbaycan müzakirə predmeti olmayan norma və prinsipləri dəyişməz sayır. Sərhədlərin toxunulmazlığı, Azərbaycanın ərazi bütövlüyü, erməni silahlı dəstələrinin bütün işğal olunmuş ərazilərdən qeyd-şərtsiz çıxarılması, qaçqın və məcburi köçkünlərin öz ata yurdlarına, doğma el-obalarına qaytarılması məsələləri barəsində Azərbaycanın mövqeyi dəyişməz və qətidir.

Azərbaycan Prezidenti H.Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasında BMT ilə ATƏT arasında əməkdaşlığın istiqamətlərinin düzgün müəyyən olunmasına önəmli əhəmiyyət verirdi. Lap əvvəldən münaqişənin həlli ilə bağlı müzakirələrdə ATƏT-ə üstünlük verən Azərbaycan Prezidenti sülh prosesinin ATƏT-də sona çatdırılması fikrini müdafiə edirdi. ATƏT münaqişə bölgəsində müəyyən iş təcrübəsi qazanmış, münaqişəyə cəlb olunmuş tərəflərlə sıx əlaqələr yaratmış, sülhə nail olmaq üçün xüsusi mövqeyini formalaşdırmış və müəyyən etmişdir .

ATƏT-in yeni keyfiyyətə keçməsi, onun bundan sonra strukturlaş-

ması iştirakçı dövlətlərin ərazisində münaqişə və böhranların nizamlanmasında onun imkanlarını daha da artırır.

Zirvə toplantısının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müzakirəsinin nəticəsi ilə bağlı konkret sənəd – «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» adlı qətnamə layihəsi qəbul olunur (9). Qeyd etmək lazımdır ki, qətnamə o qədər də asanlıqla qəbul olunmamışdı. Bu sənədin müddəalarına qarşı əvvəlcə Vyanada, sonra isə Budapeşt danışıqlarında əleyhinə çıxanlar oldu. Lakin Azərbaycanın diplomatik səyləri nəticəsində və bir çox dövlətlərin, xüsusilə ABŞ-ın səyi nəticəsində bu qətnamənin mətni qəbul edildi.

Ermənistan prezidenti L.Ter-Petrosyan isə özünü dünya birliyinə qarşı qoyaraq, xalqların öz müqəddəratını təyin etməsi prinsipini bu münaqişəyə tətbiq etməyə, Dağlıq Qarabağın erməni icmasını münaqişədə iştirak edən tərəflərdən biri kimi qələmə verməyə cəhd göstərmişdi.

Azərbaycan Prezidenti Heydər Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair öz prinsipial mövqeyini bildirərək, Böyük Siyasi Sazişin imzalanması zərurətini qeyd edərək vurğuladı: «Biz Dağlıq Qarabağ ermənilərinin iddialarına güzəştə gedərək, onlara dövlət müstəqilliyi verə bilmərik. Oxşar presedentlər tarixdə olmamışdır. Söhbət muxtariyyətdən, onun daha geniş formalarından gedə bilər. Ermənilər güc mövqeyindən çıxış edirlər. Bizim mövqeyimiz başqadır – biz problemin siyasi həllinə tərəfdarıq».

Beləliklə, Azərbaycan Prezidenti Heydər Əliyevin keçirdiyi görüşlərdə Azərbaycan həqiqətləri Avropa dövlətlərinin başçılarına çatdırılmış, tərəfdarlar və yeni müttəfiqlər qazanmaq üçün fəal axtarışlar aparılmışdır. Azərbaycan diplomatiyasının ən önəmli uğurlarından biri münaqişə ilə bağlı məsələnin toplantının gündəliyinə xüsusi məsələ kimi daxil edilməsinə nail olmasından ibarət oldu. Zirvə görüşünün gedişində, dəhliz söhbətlərində Heydər Əliyevin məntiqi və inandırıcı söhbətlərinin ayrı-ayrı dövlətlərin mövqelərinə nüfuzlu təsiri, Avropada və Qafqaz regionunda təhlükəsizliyin təmin olunması və faydalı əməkdaşlığın yaradılması üzrə ölkə Prezidentinin düşünülmüş diplomatik təklifləri nəinki Azərbaycanın milli mənafelərinə uyğun, həmçinin qarşı tərəflərin də dövləti maraqlarına hörmət ruhunda olduğundan demokratik Avropa hökumətlərinin nümayəndələrinin Qarabağ probleminə siyasi marağını daha da artırmışdı.

Budapeşt Zirvə toplantısında iştirakçıların münaqişənin həllinə dair münasibətlərini açıqlayan ümumi mövqe qəbul edilmiş sənədlərdə öz əksini tapdı. Budapeşt Zirvə toplantısının qəbul etdiyi qərarlardan biri münaqişənin həllindən sonrakı vəziyyətə verilən münasibətlə bağlı idi. Belə ki, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrin tələblərinə uyğun olaraq münaqişə aradan qaldırıldıqdan və siyasi saziş imzalandıqdan sonra münaqişə bölgəsinə ATƏT-in çoxmillətli silahlı qüvvələrinin göndərilməsi haqqında razılıq əldə olunur. Qeyd etmək lazımdır ki, ilk dəfə olaraq regional beynəlxalq təşkilatların, o cümlədən ATƏT-in təcrübəsində çoxmillətli qüvvələrin yaradılması, sülhyaratma əməliyyatlarının aparılması, qüvvələrin münaqişə bögəsinə göndərilməsi haqqında qərar verilir. Bu qərarın mahiyyəti Azərbaycanın müəyyən mənada diplomatik-siyasi mövqeyinə uyğun gəlirdi. Qərar münaqişənin həlli ilə bağlı hər-hansı bir dövlətin inhisarını yolverilməz kimi qəbul

edirdi. Həmçinin, qərar münaqişənin həllində beynəlxalq səylərin istiqamətlənməsinə, səmərəliliyinə, strukturlaşmasına bilavasitə təsir göstərmiş oldu.

Nəhayət, Budapeşt Zirvə görüşünün Azərbaycan üçün mühüm nəticələrindən biri də ATƏT-in Minsk qrupunda həmsədrlik institutunun rəsmi şəkilə formalaşması oldu ki, buna əsasən Minsk qrupunda Rusiyanın dominantlıq etməsinə son qoyuldu. Doğrudur, zirvə görüşünə qədər formal şəkildə İsveç nümayəndəsi də Minsk qrupunun Rusiya ilə yanaşı həmsədri kimi fəaliyyət göstərirdi. Lakin Budapeşt görüşündən sonra İsveçin yerini Finlandiyanın nümayəndəsi N.Nuberq tutdu və V.Kazimirovla(Rusiya) birlikdə Minsk qrupuna sədrlik etməyə başladı.

1995-ci il Azərbaycan ilə ATƏT arasında münasibətlər, ölkəmizin bu təşkilatda iştirakı bir çox istiqamətlərlə səciyyələnir. Bu istiqamətlərin təhlili göstərir ki, Azərbaycan diplomatik reallıqlardın çıxış edərək mövqe üstünlüyünü, yəni siyasi-diplomatik üstünlüyü saxlamaq, inkişaf etdirmək, daha yüksək səviyyəyə qaldırmaq, danışıqları intensivləşdirmək, atəşkəsi qoruyub saxlamaq, sülh prosesini fasiləsiz olaraq davam etdirmək, qaçqın və məcburi köçkünlərin sosial, iqtisadi və humanitar problemlərini ATƏT-in siyasi-hüquqi mexanizmindən istifadə edərək nail olmağa çalışırdı.

Budapeştdən keçən dövr ərzində Azərbaycan Prezidenti H.Əliyev tezliklə sülhə nail olmaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq, dövlətimizin ərazi bütövlüyünü təmin etmək, doğma yurdlarından didərgin düşmüş vətəndaşları öz ocaqlarına qaytarmaq üçün bütün imkanlardan istifadə etməyə çalışmışdır. Bu illərdə Azərbaycan diplomatiyası ATƏT ilə münasibətlərini bir neçə istiqamətdə qurmuşdur:

1. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupu ilə sıx əməkdaşlıq əlaqələrinin təşkil olunması;
2. ATƏT-in müxtəlif təsisatlarında yaxından iştirak edərək münaqişənin həlli ilə bağlı ümumtəşkilat mövqeyinin formalaşmasına səy göstərilməsi;
3. ATƏT-in üzv-dövlətləri ilə ayrı-ayrılıqda sıx əlaqələrin yaradılması, onlarla geniş sahələr və məsələlərin həlli üzrə mövqe yaxınlığına nail olunması;
4. ATƏT çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ikitərəfli görüşlərin keçirilməsi.

Münaqişəsinin həlli ilə bağlı iki dövlətin başçılarının birbaşa və yaxud onların şəxsi nümayəndələri arasında keçirilən görüşlər və aparılan danışıqlar da Budapeştdən sonrakı müddətdə Azərbaycan Prezidentinin rəhbərliyi altında diplomatiyamızın ATƏT çərçivəsində fəaliyyətinin əsası olmuşdur. Azərbaycan diplomatiyasının ümummilli liderimiz H.Əliyevin Budapeşt zirvə görüşündə götürdüyü strateji xətt ilk növbədə respublikamızın beynəlxalq təcriddən qurtarmasına gətirib çıxardı, bu xətt, öz doğruluğunu ATƏT-in növbəti görüşlərində və vasitəçilik missiyasında sübut etdi, respublikamızın xarici siyasət uğurlarını bu gün də təmin etməkdədir.

## ƏDƏBİYYAT

1. Смокль Б. Политика ООН и ОБСЕ в Закавказье. Пер. с англ. Секретариат ОБСЕ. Прага, 1999.
2. Аннуал Репорт он ОСЪЕ Аътивитиес. 1992-2002.
3. Xalq qazeti, 9 sentyabr 1994.
4. Абдуллазаде Ф. Гейдар Алиев: Политический портрет. Баку, издательство «XXI», 1998.
5. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı, «Tuna», 1998, 138 s.
6. Этнополитические конфликты в Закавказье: их истоки и пути решения. Центр международного развития и конфликтологии. Под ред. Б.Сандерса. Мерилендский Университет. США. 1997.
7. Azərbaycan beynəlxalq aləmdə. /Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ji illərdə xarici ölkələrə səfərlərinə dair materiallar/. I-V cildlər, Bakı, Şuşa nəşriyyatı, Göytürk, 1996-2000.
8. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. I-VII kitablar. Bakı, Azərnəşr, 1997-1999.
9. Декларация "Об интенсификации действий ОБСЕ в связи с конфликтом в Нагорном Карабахе". Материалы Будапештского Саммита. 4-6 декабря 1994 г. Будапешт, ОБСЕ, 1994.
10. Azərb.Respub. XİN-nin cari arxivi. 1992-2001-ci illrə aid arayış və hesabatlar.

## ПОСРЕДНИЧЕСКАЯ МИССИЯ ОБСЕ В УРЕГУЛИРОВАНИИ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА: ПРОБЛЕМЫ, ЗАДАЧИ

**А.А.ГЮЛЬАЛИЕВА**

**РЕЗЮМЕ**

В статье анализируется деятельность общенационального лидера Гейдара Алиева на Будапештском Саммите формирования посреднической миссии ОБСЕ. Рассматриваются активные дипломатические шаги, регулярная пропагандистская работа Азербайджанского политического руководства, которая в результате короткого времени изменила взгляды ведущих мировых держав и их отдельных влиятельных представителей.

В статье раскрывается одно из самых значительных успехов азербайджанской дипломатии, связанные с вынесением на повестку дня Саммита вопроса по Нагорному Карабаху и принятие постановлений по его урегулированию.

## MEDİATİON MİSSİON OF OSCE İN THE REGULATİON PROCESS OF NAGORNİY KARABAKH KONFLİCT : PROBLEMS AND OBLİGATİONS

**A.A.GULALİYEVA**

**SUMMARY**

İn this article the activities of nationwide leader Heydar Aliyev at Budapest Summit on the formation of OSCE mediation mission. Active diplomatic steps, regular propaganda work of Azerbaijan's political leading that as a result of short time changed view points of leading world states and their separate influential representatives.

One of the most important successes of Azerbaijan diplomacy related to drawing question on Naqorniy Karabakh to Summit's agenda and issuing resolutions on its settlement is described in this article.